# HƏRBİ POLİS ŞƏHİD

**2020-ci ilin payızında köç edən quşlar kimi şəhidlər də cənnətə köçdülər. Həmin o payız azadlıq ümidlərinin çiçəklənməsi ilə vətəni gözəlləşdirdi. Vətənin hər kəndi, hər şəhəri Qarabağın azadlığı uğrunda can verən qəhrəmanları bağrına basdı. Üçrəngli şanlı bayrağın ucaldığı müqəddəs ocaqların sayı həmin o payız çoxaldı. Yarımçıq qalan arzuların da sayı çoxaldı. Oğulsuz qalan ata-anaların, qardaşsız qalan bacı-qardaşların, yarsız qalan xanımların, atasız qalan övladların sayı artdı. Doğmaları dərdinə məhkum olan şəhidlərdən biri də Vaqif İsmayılzadə oldu.**




Payızda dünyaya gəlmişdi Vaqif. Ömrünün 24-cü payızında da dünyadan köçdü. Vətən həsrətli torpaqda vətən həsrəti çəkən Vüqar İsmayılzadənin ocağında dünyaya gəlmişdi. Vətən həsrətini bitirib, atasını doğulduğu Cəbrayıla qovuşdurub dünyadan getdi. Vaqif ağlı kəsəndən vətənsizliyin nə qədər ağrılı olduğunu duymuşdu. Cəbrayıl işğal olunandan sonra məcburi köçkün kimi Beyləqan rayonunun Mil qəsəbəsində məskunlaşan ailənin ilk övladı olan Vaqif 1996-cı il noyabrın 6-da dünyaya gəlmişdi. 2003-cü ildə I Şahsevən kənd Fazil Miriyev adına tam orta məktəbdə təhsil almağa başlamışdı. Təhsil aldığı müddətdə müəllimlərin və şagirdlərin rəğbətini qazanmışdı. Biliyi, tərbiyəsi, nümunəvi davranışları ilə hər zaman seçilmişdi. Təhsil aldığı illərdə şəkli hər zaman şərəf lövhəsində öz yerini almışdı. O zaman heç kim bilməzdi ki, gün gələcək Vaqifin şəkli Azərbaycanın qəhrəman şəhidi kimi nəinki həmin məktəbdə, vətənin hər kəndində, şəhərində asılacaq. Hər zaman hərbi dərslərdən əla qiymətlər alan Vaqif bu fənn üzrə dəfələrlə təltif olunmuşdu. Hərbiyə böyük marağı və sevgisi olan Vaqif 2014-cü ildə məktəbi bitirdikdən sonra 2015-ci ildə hərbi xidmətə getmişdi. Sumqayıt şəhəri Nasosnu qəsəbəsində xidmət etmişdi. Xidmətinin bitməsinə 3 ay qalmış atasına zəng edib MAHHXHQ kimi orduda qalıb xidmət etmək istədiyini və bunun üçün onun imzasının gərəkli olduğunu demişdi. Ancaq atası Vaqifə xidmətini bitirib evə döndükdən sonra bu addımı atmasını məsləhət görmüşdü. 2016-cı ildə xidmətini başa vurub evinə dönən Vaqifin yenidən ordu sıralarına qatılması 1 il sonra qismət olmuşdu. Həmin müddət ərzində tək oğul olduğu üçün ailəsi onu bu fikrindən daşındırmağa çalışmışdı. Lakin Vaqif israrlı idi.

Vaqif sadiq bir insan idi. Vətəninə, ailəsinə sadiq oğul sevgisinə də sadiq idi. Elə sevib seçdiyi Samirə xanım da ona sadiq idi. 2013-cü ildən bir - birini sevənlər 4 il sonra 2017-ci ilin fevralında sevgilərinin simvolu olan nişan üzüklərini bir-birilərinə əmanət etmiş, sentyabrın 9 - da isə ailə qurmuşdular. Ailə qurduqdan 2 ay sonra Vaqif hərbi polis kimi vətən keşiyini çəkməyə başlamışdı. Hər zaman xanımına deyirmiş: "Mən qocalmayacam, cavan qalacam. Hər kəs səni göstərib, qürurla "Bax, bu Vaqifin yoldaşıdır" deyəcək". Elə dediyi kimi də oldu.

Vaqif sevdiyi peşəsində cəmi 3 il xidmət etdi. Ancaq 3 ildə böyük uğurlar qazandı. İşində məsuliyyəti ilə seçilən qəhrəman dəfələrlə fəxri fərman və diplomlarla təltif edilmişdi. Hər zaman ən çətin tapşırıqların öhdəsindən məharətlə gələn Vaqif ən böyük tapşırığı da qəhrəman kimi yerinə yetirdi. Həmin o son tapşırıq əslində bir başlanğıc oldu. Azadlığın başlanğıcı, şəhid ömrünün başlanğıcı.

Vaqif 2 oğul atası idi. Vüqar və Renatla bağlı çox böyük arzuları var idi. Ancaq ən böyük arzusu Qarabağ adlı yükü iki oğlunun çiyinlərinə yükləməmək idi. Çünki özü o işğal yükünü daşıyaraq böyümüşdü. Nə qədər ağır olduğunu yaxşı bilirdi. O, övladlarına Qarabağın azadlığını miras qoyub getdi.

Sentyabrın 23-də ailəsini götürüb Bakıda yaşayan ata - anasının yanına gəlmişdi. O, görüşüb gedəndə qısa zamanda dönüb ailəsini aparacağını demişdi. Lakin 26-da dönməli olan Vaqif zəng edib vacib bir əməliyyata gedəcəyi üçün gələ bilmədiyini deyib. Sən demə bu əməliyyat "Dəmir yumruq" əməliyyatı imiş. Müharibəyə qatılmaq üçün iki dəfə ərizəsinə "Yox" cavabını alan Vaqif üçüncü ərizəni komandirin stolunun üstünə qoyub və cavab gözləmədən müharibəyə yollanıb. İllərlə gözlənilən həmin o günün çatması Vaqifin Cəbrayıl adlı ümidini isidib. Müharibənin ilk günündən könüllü olaraq döyüşlərə qatılan hərbi polis Vaqif İsmayılzadə şəhid olduğu günə qədər azad olan bütün torpaqların azadlığı uğrunda qəhrəmancasına vuruşub. Azad olunan torpaqlardan müjdə verən qəhrəman oğul Cəbrayıldan çəkdiyi kadrları ata, anasına göstərərək onları sevinc göz yaşına qərq edib. Zarafat deyil illər öncə didərgin düşdüyün torpaqları oğulun azad edib oradan video çəkib göstərməyi(Həmin o qürurlu baxışı gözlərimlə görmək istərdim). Döyüş bölgəsinə yaxın qalan Vaqif polis olduğu üçün arada evə gəlmək imkanı olurdu. Bir neçə dəqiqəlik evə gələn Vaqif son dəfə oktyabrın 16-da evlərinə gəlib. Onun son gəlişi doğmaları çəkliş vasitəsi ilə əbədiləşdirib. Sanki olacaqlardan xəbərdar imişlər. Hər kəslə vidalaşıb döyüşə qayıtdıqdan sonra oktyabrın 20-də atasının və nənəsinin ad günündə onlara zəng edərək təbrik edib. Həmin gün hər kəslə danışan Vaqif sanki hər kəslə vidalaşıb. Səhərin sübh çağında isə yoldaşına bu sözləri yazıb:

- Sabahın xeyir, ömrüm. Sən onu bil ki, mən səni hər şeydən çox sevdim və sevirəm. Kiminsə də ayağına vermədim. Mən səni, uşaqları çox sevirəm. Bunu bil ki, həmişə səni sevəcəm. Ömrüm, özünü və uşaqları qoru. Allaha əmanət olun.

Elə bu sözlər Vaqifin vida sözləri kimi tarixin yaddaşına həkk olunub. Vaqif bu sözləri yazarkən yəqin ki, dönüşü olmayacağını bilib. Axı o, neçə-neçə oğulun son nəfəsinə şahid olmuşdu. Döyüş yoldaşları Vaqifin döyüşlər zamanı "Cənnətin qoxusu gəlir,siz də hiss edirsiniz?" sözlərini dilə gətirdiyini deyirlər. Vaqif döyüşdə yaralanan və şəhid olan çox qəhrəmanları döyüş bölgəsindən kənarlaşdırmışdı. O müqəddəs qanlar onun ruhuna hopmuşdu. Son dəfə oktyabrın 21 - də Xocavəndin Ahullu kəndi istiqamətində şəhidlərimizin nəşlərini götürməyə çalışarkən maşını minamyotla vurulub. Elə həmin an şəhadətə ucalıb. Ancaq neytral zonada olduğu üçün onun nəşini götürmək mümkün olmayıb. Zəngləri cavabsız qalan ailə təşviş içində Bakıdan Beyləqana gedib. 4 gün hər kəs Vaqifi axtarıb. Seminarə anaya Vaqifin komada olduğunu deyiblər. Oktyabrın 25-də anaya axşam oğlu ilə görüşəcəyini deyiblər. Axşam saatlarında ailə gələn zənglə "Başınız sağ olsun, Vaqif şəhid olub" sözlərini duyub. O an Vaqifin geridə gözü yaşlı qalanları oğulsuz ata, anaların, atasızların, yarsızların, qardaşsız qalan bacıların cərgəsinə qoşulub. Oktyabrın 26-da günorta saatlarında evinə gətirilən şəhid izdihamlı vida mərasimindən sonra Qəhrəmanlı kənd məzarlığında qəhrəman şəhidlərin sırasında yer alıb.

Hərbi polis İsmayılzadə Vaqif Vüqar oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilib.



## ŞƏHİD VAQİF

***Sənsizlik coşqun dəniz,***
***Dalğası həsrət, acı.***
***Sənli arzular idi,***
***Xoşbəxtliyin baş tacı.***

***Sən gedən gün çırpıldı,***
***Ümidlər qaya, daşa.***
***Qanınla nöqtə qoydun,***
***Vaqif, qanlı savaşa.***

***Ardınca gözün dikdi,***
***Məsum Vüqar, Renatın.***
***Mərmilər sındırdılar,***
***Uşaqların qanadın.***

***Ananın baxışında,***
***İzin saldı intizar.***
***Ürəyin məskən etdi,***
***Oğul adlı dərd, qübar.***

***Varlığı yoxluğunla,***
***Külə döndü atanın.***
***Dedi "Səs ver səsimə,***
***Ay məzarda yatanım."***

***Yarın əşyalarını,***
***Sənin kimi qoxudu.***
***Böyüməyən eşqinə,***
***Gecə layla oxudu.***

***Bacının əllərindən,***
***Uçub getdi çərpələng.***
***Bu dünyanı görməyir,***
***Bacın daha rəngbərəng.***

***Səni sevənlər qaldı,***
***Sənsizliklə baş-başa.***
***Vaqif, sənin məzarın,***
***Dönüb dosta, sirdaşa.***

**Manya SƏXAVƏTQIZI**